

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 sentyabr 2021-ci il №72 (2580) https://mod.gov.az Qiyməti 30 qəpik


# Əbədi, sarsılmaz qardaşlarıq biz!

## “Üç qardaş - 2021” beynəlxalq təliminin açılışına həsr olunan təntənəli mərasim keçirilib



***Sentyabrın 12-də Bakıda Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə "Üç qardaş - 2021" beynəlxalq təliminin açılışına həsr olunan təntənəli mərasim keçirilib.***

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Cavanşir Xüsusi Təyinatlı Qüvvələr komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Hikmət Mirzəyevə təlim iştirakçılarının açılış mərasiminə hazır olduqları barədə məruzə edib.

Xüsusi Təyinatlı Qüvvələr komandanı üç dövləti təmsil edən xüsusi təyinatlıları birgə təlimlərin başlaması münasibətilə təbrik etdikdən sonra Azərbaycan, Türkiyə və Pakistanın şəhidlərinin xatirəsini yad etmək üçün bir dəqiqəlik sükut elan olunub.

İştirakçı ölkələrin Dövlət Himnlərinin müşayiəti ilə həmin respublikaların Dövlət Bayraqları qaldırılıb.

General-leytenant Hikmət Mirzəyev çıxış edərək Türkiyə və Pakistan xüsusi təyinatlılarının nümayəndələrini salamlayıb və onları Azərbaycanda görməkdən məmnun olduğunu bildirərək deyib: "Azərbaycan, Türkiyə və Pakistan bəşəriyyət tarixinə bir-birinə yaxın dost və qardaş ölkələr kimi düşüb. Bu əlaqələrin mərkəzində dayanan isə xalqlarımızın bir-birinə sıx şəkildə bağlı olmalarıdır. Buna əyani sübut kimi Azərbaycanın 2020-ci il sentyabrın 27-də təcavüzkar Ermənistanın silahlı qüvvələrinə qarşı başladığı 44 günlük əks-hücum əməliyyatının ilk günündən Türkiyə və Pakistanın Azərbaycana həmrəylik və dəstək nümayiş etdirməsini göstərmək olar. Bu gün ölkələrimiz arasında bütün sahələr üzrə əməkdaşlıq ən yüksək səviyyədədir. Regionun və xalqlarımızın təhlükəsizliyinin təmin edilməsi üçün əlaqələrimizin daha da gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir".

(Ardı 4-cü səhifədə)



Naxçıvan Müdafiə Komitəsinin ilk sədri olmuş Elman Abbasov “Şücaətə görə” medalı ilə (ölümündən sonra) təltif edilib

4-cü səhifədə



Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib

5-ci səhifədə



Şəhid Elnur Cabbarova həsr olunmuş anım mərasimi

6-cı səhifədə



Yaddaşlara hopan tarixi gün

8-ci səhifədə

# Türkiyə prezidenti Müdafiə Nazirliyinin rəhbərliyini qəbul edib

*Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovu və Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyevi qəbul edib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qəbulda Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Baş Qərargah rəisi ordu generalı Yaşar Güler də iştirak edib.

# Azərbaycanın Müdafiə naziri Türkiyə tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akara və Baş Qərargah rəisi ordu generalı Yaşar Gülerə başsağlığı ünvanlayıb.

Başsağlığında deyilir: "Suriyanın İdlib şəhərində, xaincəsinə edilmiş hücum nəticəsində qardaş Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçularının şəhid olması və yaralanması haqqında məlumatlar məni dərindən kədərləndirir.

Həlak olanlara rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verir və Allahdan səbir diləyirik. Ruhları şad, xatirələri əziz olsun. Bütün yaralılara Tanrıdan şəfa diləyirəm. Sizin acınız bizim də acımızdır.

Türkiyə Silahlı Qüvvələri tərəfindən həyata keçirilən terrorla mücadilə əməliyyatının müvəffəqiyyətlə başa çatmasına əminliyimi ifadə edir və uğur arzulayıram".

# Azərbaycan və Türkiyə hərbi rəhbərliyi "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimlərini izləyiblər







Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akarın dəvətilə qardaş ölkədə



səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov, Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev və Müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov "TurAz Şahini - 2021" birgə taktiki-uçuş təlimlərində keçirilən "Yüksək səviyyəli müşahidəçi günü"ndə iştirak etmək üçün Konya şəhərinə gəliblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimlərin keçirildiyi ərazidə fəxri qarovulun iştirakı ilə Azərbaycan nümayəndə heyətinin təntənəli qarşılanma mərasimi olub.

Sonra "TurAz Şahini - 2021" birgə təlimlərinin gedişi, yerinə yetirilən tapşırıqlar barədə yüksək səviyyəli qonaqlar üçün brifinq təqdim edilib. Brifinqdən sonra Azərbaycan və Türkiyə Respublikalarının Müdafiə nazirləri çıxış ediblər.

General-polkovnik Zakir Həsənov təlimlərdə iştirak edən şəxsi heyəti salamlayaraq bildirib ki, Azərbaycan-Türkiyə əlaqələri dövlət başçılarımızın rəhbərliyi ilə uğurla davam etdirilir.

Bu gün Azərbaycan-Türkiyə əlaqələri strateji tərəfdaşlığa əsaslanır və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür.

Vətən müharibəsində də qardaş Türkiyənin mənəvi dəstəyini xüsusi vurğulayan Müdafiə naziri Türkiyə tərəfinə minnətdarlığını bildirib.

Nazir, həmçinin birgə təlimlərin hərbi pilotların bilik və bacarıqlarının daha da artırılmasına xidmət etdiyini vurğulayıb.



Sonra Türkiyənin Milli Müdafiə naziri Hulusi Akar çıxış edərək birgə təlimlərin keçirilməsini yüksək qiymətləndirdiyini qeyd edib. İkitərəfli hərbi əməkdaşlığın inkişafının vacibliyini bildirən Hulusi Akar bu təlimlərin hərbçilərimizin təcrübə qazanması üçün çox vacib olduğunu, iki ölkə arasındakı hərbi əməkdaşlığın xalqlarımız və ölkələrimizin təhlükəsizliyinə və bölgədəki sabitliyə yönəldiyini xüsusi vurğulayıb.

Hər iki nazir təlim iştirakçıları tərəfindən yüksək peşəkarlıq və bacarıq nümayiş etdirildiyini, həmçinin qarşıya qoyulmuş tapşırıqların müvəffəqiyyətlə yerinə yetirildiyini yüksək qiymətləndirərək iştirakçılara xidmətdə daha böyük uğurlar arzulayıblar.




Sonda qonaqlar təlimlərin praktiki hissəsini izləyiblər.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisi Türkiyədə rəsmi səfərdədir











Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Respublikasında səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-leytenant Kərim Vəliyev sentyabrın 12-də Ankaradakı Heydər Əliyev Parkını ziyarət edib.

General-leytenant Kərim Vəliyev Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.

* * *

Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib.

Azərbaycan Müdafiə Nazirliyinin nümayəndə heyəti məzar önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

Baş Qərargah rəisi Xatirə kitabına ürək sözlərini yazıb.

* * *

Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev sentyabrın 13-də Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar və Baş Qərargah rəisi ordu generalı Yaşar Güler ilə görüşüb.

Görüşlərdə hərbi, hərbi-texniki, hərbi-təhsil, mühəndis təminatı və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə edilib, hər iki ölkənin orduları arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanıb.

* * *

Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev sentyabrın 13-də Türkiyə Respublikasının Baş Qərargahının ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu və Xüsusi Təyinatlı Qüvvələr Komandanı diviziya generalı Ömer Ertuğrul Erbakan ilə görüşüb.



Görüşlərdə Azərbaycan və Türkiyə arasında əlaqələrin inkişafı, həmçinin hərbi və digər sahələrdə əməkdaşlığın uğurla davam etməsindən danışılıb.

Son zamanlar iki qardaş ölkənin birgə təlimlərinin əhəmiyyəti xüsusi vurğulanaraq bu kimi təlimlərin təcrübə mübadiləsi, dostluq və qardaşlığın daha da güclənləndirilməsi baxımından müstəsna rol oynayacağı bildirilib və gələcəkdə də birgə təlimlərin keçirilməsinin vacibliyi qeyd edilib.

General-leytenant Kərim Vəliyev hazırda Bakıda keçirilən Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin "Üç qardaş - 2021" birgə beynəlxalq təlimini hərbi qulluqçuların peşəkarlığının artırılması baxımından vacib hesab etdiyini bildirib.

Müdafiə sahəsində əməkdaşlığın genişlənməsinin sadəcə ölkələrimiz üçün deyil, eləcə də bölgədə sülhün, sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə töhfə verəcəyindən əminlik ifadə edilib.

Sonra Türkiyə Respublikasının Xüsusi Təyinatlı Qüvvələr Komandanlığının ərazisi ilə tanışlıq keçirilib.

Sonda qarşılıqlı plaketlər təqdim olunub.

## Laçın rayonunda keçirilən Azərbaycan-Türkiyə birgə təlimi başa çatıb



Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının Laçın rayonunda keçirilən birgə döyüş atışlı taktiki təlimi başa çatıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlim zamanı xüsusi təyinatlı qruplar mürəkkəb relyefli ərazilərdə kəşfiyyatın aparılması, əlaqə yollarında pusquların qurulması, ərazidə təxribat qruplarının aşkarlanması, zərərsizləşdirilməsi, məhv edilməsi, o cümlədən müxtəlif manevləri dəf edərək gizli yollarla şərti düşmənə yaxınlaşma və qarşıya qoyulan digər tapşırıqları uğurla icra ediblər.

Hər iki ölkənin hərbi qulluqçularının təlimdə nümayiş etdirdiyi peşəkarlıq yüksək qiymətləndirilib.

## Xüsusi təyinatlılar “Üç qardaş - 2021” təlimində müxtəlif tapşırıqları icra ediblər

Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin "Üç qardaş - 2021" beynəlxalq təlimində atəş hazırlığı üzrə məşğələlər keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, təlimin planına əsasən, xüsusi təyinatlı bölmələr atıcı silahlardan və qumbaraatandan praktiki atışların yerinə yetirilməsi tapşırıqlarını icra ediblər.

* * *

Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş - 2021" beynəlxalq təlimində hava desant hazırlığı üzrə məşqlər icra olunub.



Təlimin planına əsasən, hava desant hazırlığı mərhələsində xüsusi təyinatlı bölmələrin helikopter vasitəsi ilə yerdəyişməsi, mühafizənin təşkili və təxliyə üsulları məşq etdirilib.

Məşqlərin gedişatında xüsusi təyinatlıların fəaliyyəti yüksək qiymətləndirilib.

Qeyd edək ki, Azərbaycan, Türkiyə və Pakistanın xüsusi təyinatlı qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən "Üç qardaş - 2021" beynəlxalq təlimi sentyabrın 20-dək davam edəcək.

# Naxçıvan Müdafiə Komitəsinin ilk sədri olmuş Elman Abbasov "Şücaətə görə" medalı ilə (ölümündən sonra) təltif edilib

*Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilən dən cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Naxçıvan Müdafiə Komitəsi yaradılıb.*



Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə yaradılan və Əlahiddə Ümumqoşun Orduya qədər böyük bir inkişaf yolu keçən Müdafiə Komitəsinin ilk sədri Elman Abbasov təyin edilib. Azərbaycanın həqiqi hərbi xidmət keçirilən ilk milli ordusunun komandiri və Müdafiə Komitəsinin sədri olmuş Elman Abbasovun xüsusi xidmətləri sayəsində torpaqlarımızın qorunması daha da peşəkarlaşaraq müdafiə gücümüz nizami ordu halını almışdır.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, 7 sentyabr 2021-ci il tarixdə Azərbaycan Respublikası Müdafiə nazirinin əmri ilə Abbasov Elman Abbas oğlu "Şücaətə görə" medalı ilə (ölümündən sonra) təltif edilib.

Azərbaycan Respublikasının "Şücaətə görə" medalının təqdim edildiyi tədbirdə Elman Abbasovun oğlu Tural Abbasov və qardaşı Nizami Abbasov iştirak edib. Tədbirdə Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Elman Abbasovun ərazi bütövlüyümüzün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini, vətənin müdafiəsində hərbi borcunu yerinə yetirərkən şücaət göstərdiyinə görə təltif edildiyini diqqətə çatdırıb. Bu da Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların fəaliyyətinə dövlətimizin verdiyi yüksək qiymətdir.

"Şücaətə görə" medalı ilə təltif olunan Elman Abbasovun oğlu Tural Abbasov göstərilən qayğıya görə dövlətimizə minnətdarlıq edib və bunu Vətən, xalq qarşısında xidməti olan şəxslərə hərtərəfli dövlət qayğısı kimi dəyərləndirib.

Sonra "Şücaətə görə" medalı Tural Abbasova təqdim edilib.

# Hərbi Dəniz Qüvvələrində birgə təlimlər başa çatıb





Hərbi Dəniz Qüvvələrində Azərbaycan və Türkiyə sualtı hücum və sualtı müdafiə qruplarının təlim-məşqlərinin başa çatması ilə bağlı tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə çıxış edən Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov bildirib ki, təlimlərdə qarşıya qoyulan tapşırıqlar iki qardaş ölkənin hərbi qulluqçuları tərəfindən uğurla və peşəkarlıqla yerinə yetirilib.

Təlimlərdə fərqlənən hərbi qulluqçulara Fəxri fərman və qiymətli hədiyyələr təqdim edən kontr-admiral Sübhan Bəkirov onlara gələcək xidmətlərində daha böyük nailiyyətlər əldə etməyi arzulayıb.

Qeyd edək ki, iki qardaş ölkə ordularının nümayəndələrinin iştirakı ilə keçirilən birgə təlimlərin əsas məqsədi döyüş əməliyyatlarının aparılması zamanı bölmələrin qarşılıqlı fəaliyyətlərinin təkmilləşdirilməsi, xüsusi təyinatlı tapşırıqların icrası zamanı uzlaşmanın təmin edilməsi, eləcə də peşəkarlığın və bölmələrin idarəetmə vərdişlərinin inkişaf etdirilməsidir.

# Əbədi, sarsılmaz qardaşlarıq biz!

(Əvvəli 1-ci səhifədə)



General-leytenant Hikmət Mirzəyev "Üç qardaş - 2021" beynəlxalq təlimlərinin hər üç ölkənin hərbi qulluqçuları arasında geniş təcrübə və fikir mübadiləsi aparılacağına və onların peşəkar hazırlıq səviyyəsinin daha da artırılmasına böyük töhfə verəcəyinə əminliyini bildirib.

Türkiyə və Pakistan nümayəndə heyətlərinin rəhbərləri polkovnik-leytenant Kürşad Konuk və polkovnik-leytenant Aamir Şahzad çıxışlarında qeyd ediblər ki, xalqlarımız və ordularımız arasında bu dostluq bağı sürətlə dəyişən qlobal mühitdə zamanın sınaqlarından uğurla çıxacaq, beynəlxalq siyasi dəyişikliklərin güclü küləkləri bütün dünyanı bürüsə də, bu üç qardaş etibarlı regional tərəfdaş və əməkdaş olaraq daha da yaxınlaşacaqdır. "Üç qardaş - 2021" beynəlxalq təlimi ordular arasında mövcud olan ikitərəfli əlaqələrin daha da gücləndirilməsinə xidmət edəcək, eyni zamanda, terrorla mübarizə üçün yeni üsulların kəşf edilməsinə və qarşılıqlı təcrübə mübadiləsi yolu ilə bacarıqlarımızı inkişaf etdirməyə imkan yaradacaqdır.

Açılış mərasiminin rəsmi hissəsi başa çatdıqdan sonra Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin komandanlığı qonaqlarla görüşüb, onlara təlimlərdə uğurlar arzulayıb.

Əməkdar İncəsənət xadimi polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanan "Əbədi, sarsılmaz qardaşlarıq biz" adlı musiqili-xoreoqrafik kompozisiya və "Üç qardaş - 2021" beynəlxalq təliminə həsr olunan "Üç qardaş" mahnısının təqdimatı ilə açılış mərasimi başa çatıb.





# Müdafiə Nazirliyinin məlumatı

*Digər ölkələrə aid nəqliyyat vasitələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan Respublikası ərazilərinə qanunsuz keçməsi ilə bağlı Müdafiə Nazirliyi tərəfindən Rusiya Federasiyası Müdafiə Nazirliyi və sülhməramlı qüvvələrin komandanlığına məktublar ünvanlanmışdır.*

Məktublarda qeyd olunmuşdur ki, bu kimi hallar Azərbaycan Respublikası və Rusiya Federasiyası Prezidentlərinin və Ermənistan Baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladığı üçtərəfli bəyanata ziddir və onların qarşısının alınması xahiş olunmuşdur.

Azərbaycan Respublikasının razılığı olmadan digər ölkələrin hüquqi və fiziki şəxsləri və onlara aid nəqliyyat vasitələri Azərbaycan ərazisinə daxil ola bilməz və bu kimi hallar ölkəmizin qanunlarının pozulmasıdır.

# Vətən müharibəsi şəhidlərinin xatirəsi yad edilib





*Müdafiə Nazirliyinin təşkilatçılığı ilə Vətən müharibəsi şəhidləri polkovnik-leytenant Həmdəm Mail oğlu Ağayev və baş leytenant Adil Asəm oğlu İbrahimlinin doğum günləri münasibətilə xatirə tədbirləri keçirilib.*

Milli Məclisin, Müdafiə Nazirliyinin, Xəzər və Ağdam rayon icra hakimiyyətlərinin rəsmiləri, şəhidlərin ailə üzvləri, Vətən müharibəsi iştirakçıları və qazilər, ictimaiyyət nümayəndələri İkinci Şəhidlər xiyabanını ziyarət edib, şəhid məzarlarının önünə əklil, çələnglər qoyaraq onların xatirəsini ehtiramla yad ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbir başlamazdan öncə respublikamızın ərazi bütövlüyünün qorunması, bərpası və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə şəhidlik zirvəsinə ucalan Vətən övladlarının xatirəsinə bir dəqiqəlik sükut elan edilib, hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa olunub.

Polkovnik Abdulla Qurbani hər iki hərbi qulluqçunun qısa, lakin şərəfli, hər bir gənc üçün örnək olan ömür yolundan, Azərbaycan Ordusunda nümunəvi hərbi xidmətlərindən, eləcə də Vətən müharibəsində hərbi əməliyyatlar zamanı göstərdikləri qəhrəmanlıq, fədakarlıq, mərdlik və igidlik nümunələrindən söhbət açıb, onların ölümlərindən sonra Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən xidmətlərinin yüksək qiymətləndirildiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Qeyd edilib ki, Həmdəm Ağayev 1975-ci ildə Ağdərə rayonunun Sırxavənd kəndində anadan olub (Sırxavənd kəndi indi Ağdam rayonunun ərazi vahidinə daxil edilib). 1992-ci ildə kənd orta məktəbini bitirdikdən sonra müddətli həqiqi hərbi xidmət keçib və Bakı Ali Birləşmiş Komandanlıq Məktəbinə daxil olub. İndiki Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini müvəffəqiyyətlə başa vurduqdan sonra Azərbaycan Ordusunda müxtəlif vəzifələrdə xidmət edərək birləşmə komandirinin müavini vəzifəsinə və "polkovnik-leytenant" hərbi rütbəsinədək yüksəlib.

Hansı hərbi hissədə, hansı vəzifədə xidmət etməsindən asılı olmayaraq qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib, komandanlığın etimadını doğruldub, təbeliyində olan şəxsi heyətin rəğbətini qazanıb.

Polkovnik-leytenant Həmdəm Ağayev sağlığında 10-dan çox döyüş medalı ilə təltif olunub.

Vətən müharibəsinin ilk günündən Füzuli rayonunun yaşayış məntəqələrinin işğaldan azad edilməsi uğrunda döyüşlərdə fəal iştirak edərək yüksək peşəkarlıq və şücaət nümunələri göstərib.

4 oktyabr 2020-ci ildə Füzuli rayonu ərazisində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan polkovnik-leytenant Həmdəm Ağayev ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarına yüksək peşəkarlıqla rəhbərlik etdiyinə, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində fədakarlıq və rəşadət göstərdiyinə, vəzifə borcunu ləyaqətlə və vicdanla yerinə yetirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.



Polkovnik Abdulla Qurbani bildirib ki, Adil İbrahimli 1992-ci ildə Sumqayıt şəhərində anadan olub. Əslən Naxçıvan Muxtar Respublikasının Şərur rayonundandır. 2011-ci ildə Cəmşid Naxçıvanski adına hərbi liseyi, 2015-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini, 2016-cı ildə isə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin "Zabit ixtisas kursu"nu bitirib.

Azərbaycan Ordusunda müxtəlif vəzifələrdə xidmət edib və ona 2018-ci ildə "baş leytenant" hərbi rütbəsi verilib. Vətən müharibəsinin ilk günündən Kəlbəcər, Xocavənd, Şuşa uğrunda döyüşlər zamanı xüsusi əməliyyatlarda fəal iştirak edib, şəxsi rəşadət və şücaət nümunələri göstərib.

2020-ci il noyabrın 2-də Xocavənd rayonu ərazisində qəhrəmancasına şəhid olub.

Sağlığında iki döyüş medalı ilə təltif olunan gənc zabitə ölümündən sonra Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulan döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi qəhrəmanlıq nümunələrinə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirərkən igidlik və mərdlik nümayiş etdirdiyinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən "Vətən Müharibəsi Qəhrəmanı" adı verilib, "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

Tədbir iştirakçılarının diqqətinə çatdırılıb ki, Adil İbrahimlinin qayını leytenant Qəmbərli Elton Baba oğlu da Vətən müharibəsi cəbhələrində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə yüksələn zabitlərimizdəndir.

Milli Məclisin vitse-spikeri Adil Əliyev Vətənə layiqli övladlar tərbiyə etdiklərinə görə şəhidlərin valideynlərinə bir daha minnətdarlıq edib və nə qədər Azərbaycan var, qədirbilən Azərbaycan xalqı var onların adlarının əbədi yaşayacağına, xatirələrinin əziz tutulacağına əminliyini bildirib.

Vitse-spiker Adil Əliyev təcavüzkar Ermənistanın təxribatlarına cavab olaraq Azərbaycanın öz ərazi bütövlüyünün bərpası və tarixi torpaqlarımızın işğaldan azad edilməsi naminə başladığı Vətən müharibəsində qazanılan möhtəşəm qələbənin xalqımızın birliyinin, həmrəyliyinin, rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin misilsiz qəhrəmanlıqlarının, əlbəttə, Müzəffər Ali Baş Komandanımızın sərkərdəlik məharətinin, hücum diplomatiyasının və "Dəmir yumruğ"unun qələbəsi olduğunu iftixar hissi ilə vurğulayıb.

Xəzər rayon İcra Hakimiyyətinin başçısı Elşən Salahov respublikamızın hər yerində olduğu kimi, Xəzər rayonunda da şəhid ailələrinin, o cümlədən müharibə qazilərinin daim diqqətdə saxlanıldığını və bu istiqamətdə fəaliyyətin bundan sonra da davam etdiriləcəyini qeyd edib.

Şəhidlərin ölümlərindən sonra layiq görüldükləri medallar və Müdafiə Nazirliyinin nəşri olan "Vətən müharibəsi şəhidləri" adlı kitabın nüsxələri şəhid ailələrinə təqdim edilib.

Vətən Müharibəsi Qəhrəmanı şəhid Adil İbrahimlinin atası Asəm İbrahimov və şəhid polkovnik-leytenant Həmdəm Ağayevin bu gün də Azərbaycan Ordusunda xidmət edən qardaşı polkovnik-leytenant Mübariz Ağayev şəhidlərə və şəhid ailələrinə göstərilən ehtirama, diqqət və qayğıya görə Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Müdafiə Nazirliyinin rəhbərliyinə və bütün ziyarətçilərə minnətdarlıqlarını bildiriblər.

Xatirə mərasimi hərbi orkestrin ifa etdiyi "Qələbə Marşı"nın sədaları ilə başa çatıb.

İkinci Şəhidlər xiyabanında keçirilən tədbirdən sonra şəhid Həmdəm Ağayevin əvvəllər yaşadığı binanın həyətində "Şəhid Həmdəm bulağı"nın təntənəli açılışı olub.





# Şəhid Elnur Cabbarova həsr olunmuş anım mərasimi





Ötən ilin 27 sentyabrında başlayan və 44 gün davam edən Vətən müharibəsi ordumuzun məğlubedilməz gücünü, qüdrətini dünyaya bir daha göstərdi. Hər zaman Ali Baş Komandanımızın döyüş əmrinə hazır olan rəşadətli Azərbaycan Ordusu uzun illər işğalda qalan tarixi torpaqlarımızı nankor düşməndən azad etdi. Lakin hər bir müharibə kimi bu haqq savaşımız da itkisiz ötüşmədi. Vətən müharibəsində Dövlət Bayrağımızın doğma Qarabağda dalğalanması üçün cəsur və qorxmaz oğullarımız canlarından keçdilər. Belə oğullardan biri də şəhid Elnur Cabbarov idi. Yaşasaydı, Elnurun 27 yaşı olacaqdı.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Vətən müharibəsində şəhid olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elnur Cabbarovun doğum günü münasibətilə anım mərasimi keçirildi.

Mərasimdə şəhidin ailə üzvləri, döyüş və hərbçi yoldaşları, Laçın rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak etdilər. Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı, suverenliyi uğrunda şəhidlik zirvəsinə yüksələn soydaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni səsləndirildi.

Elnur Cabbarov 12 sentyabr 1994-cü ildə Ağcabədi rayonunda anadan olub. Əslən Laçın rayonundan idi. Müharibəyə də Laçını görmək arzusu ilə getmişdi. Elnur Cabbarov Füzulinin, Cəbrayılın, Hadrutun, Zəngilanın, Xocavəndin, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak edib. Yaralanmağına baxmayaraq, Elnur yenidən döyüşə qatılır. Noyabrın 5-də Şuşa uğrunda gedən döyüşlərdə ağır yaralanaraq hospitala çatdırılır. 7 günlük komadan ayılmayan Elnur 12 noyabr 2020-ci ildə şəhidlik zirvəsinə yüksəlir. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğalda olan ərazilərin azad olunması zamanı şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamları ilə "Qarabağ" ordeni, "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

Mərasimdə çıxış edən Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin rəisi polkovnik-leytenant İlkin Qayıbov şəhidlərin bizim üçün xatirələrinin əziz və əbədi olduğundan danışdı. "Mərasimin keçirilmə səbəbi hər kəsə məlumdur. Biz igid əsgərimiz Elnur üçün buradayıq. İlk öncə Elnura və onun simasında bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik, ailələri qarşısında baş əyirik".

Mərasimdə şəhidin qısa, lakin şərəfli həyat yolundan, Vətənimiz uğrunda fədakarcasına döyüşməsindən, xalqına, dövlətinə bağlılığından da söz açıldı. Elnurun ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə xüsusi minnətdarlıqlarını bildirdilər.

Elnur Cabbarovun həyatı və fəaliyyəti haqqında videoçarx nümayiş olundu. Mərasim Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin vətənpərvərlik və qəhrəmanlıq mövzusunda musiqilər ifa etməsi ilə başa çatdı.

**Leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu"**

# Bakının işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə hərbçilərin yürüşləri təşkil olunacaq

Bakının işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə sentyabrın 15-i saat 10:00-da Bakı, Naxçıvan, Gəncə, Sumqayıt və Şuşa şəhərlərinin mərkəzi küçələrində "Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır" devizi altında hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri keçiriləcək.

Qeyd edək ki, Bakıda keçiriləcək yürüşlər iki istiqamətdən - Şəhidlər xiyabanından və 28 May küçəsindəki Səməd Vurğun bağından start götürəcək.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində və Hərbi tibb fakültəsində andiçmə mərasimləri keçirilib



*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədris ilinin başlanması münasibətilə hərbi kadrlar hazırlayan xüsusi təyinatlı təhsil müəssisələrinə yeni qəbul olan kursantların andiçmə mərasimləri keçirilib.*

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin şəxsi heyətinin, valideynlərin və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Sonra kursantlar sıra meydanında Vətənə sədaqət andı içiblər.

Təntənəli mərasimdə çıxış edənlər kursantlara Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi anda sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, silah və texnikaların sirlərini dərindən öyrənərək döyüş qabiliyyətlərini daim artırmalarını, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini tövsiyə ediblər.

* * *

Tədris ilinin başlanması münasibətilə Mərkəzi Hərbi Klinik Hospitalın ərazisində Azərbaycan Tibb Universitetinin (ATU) hərbi tibb fakültəsinin kursantlarının andiçmə mərasimi keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Hərbi tibb fakültəsinin rəisi tibb xidməti polkovniki Çingiz Əlləzov kursantları və onların valideynlərini təbrik edərək kursantlara təhsildə, eləcə də xidmətdə uğurlar arzulayıb.

Təntənəli mərasimdə çıxış edən polkovnik Məharət Rzayev, mayor Yaqub Qasımov və kursant Nicat Nəsibli gənc kursantlara Vətənə, dövlətə və Ali Baş Komandana, Hərbi anda sadiq olmağı, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirməyi, nizam-intizamla xidmət etməyi, hərbi həkimlik peşəsinin sirlərini dərindən öyrənməklə şəxsi heyətin sağlamlığını qorumağı tövsiyə ediblər.

Sonra kursantlar sıra meydanında Vətənə sədaqət andı içiblər.

Andiçmə mərasimindən sonra kursantlar üçün bayram konserti təşkil olunub.





* * *

Tədris ilinin başlanması münasibətilə Cəmşid Naxçıvanski adına hərbi liseyə yeni qəbul olan kursantların andiçmə mərasimi keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, liseyin şəxsi heyəti, müəllimlər, valideynlər və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin və Vətənimizin azadlığı, suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Tədbirdə gənc kursantlar təbrik edilib, onlara gələcək xidmətlərində uğurlar arzulanıb.

Sonra kursantlar sıra meydanında Şərəf andı içiblər.

Hərbi orkestrin müşayiəti ilə kursantlar lisey marşını ifa etdikdən sonra şəxsi heyət təntənəli marşla tribunanın önündən keçib.

Mərasimdə çıxış edənlər kursantlara Vətənə, dövlətə və Ali Baş Komandana, Şərəf andlarına sadiq olmalarını, nümunəvi, nizam-intizamlı xidmət etməyi, komandir-rəis heyətinin əmr və sərəncamlarını dəqiq və vaxtında yerinə yetirmələrini tövsiyə ediblər.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Ermənilərin əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasəti.

**Suallar:**

**1. Ermənilərin əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasətinin formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsi və tarixi ədalətin bərpası uğrunda mübarizə.**

### Ermənilərin əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasətinin formalaşması tarixi

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Ermənilər ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularını satmış, bunun müqabilində isə özlərinə müxtəlif mükafatlar, xidmət muzdu almışlar. Regiona tamah salan hər bir yadellinin qulluğunda can-başla durmaq onların peşəkar cəhəti kimi özünü daim büruzə vermişdir. Bu əməllərin müqabilində isə aldıqları yüksək mənsəblər, yeni-yeni ərazilər, var-dövlət olmuşdur.

Ermənilərin ilk dəfə tarixi Azərbaycan torpaqlarına köçürülməsi Qaraqoyunlu dövlətinin dövrünə təsadüf etmişdir. Qaraqoyunlu hökmdarı Cahan şahın icazəsi ilə 1441-ci ildə erməni katalikoslarının fəaliyyət mərkəzi Kilikiyanın Sis şəhərindən Azərbaycana - İrəvan yaxınlığındakı Üçkilsə (Üçmüədzin) monastrına köçürüldü. Bununla Cənubi Qafqazda, xüsusən də əzəli Azərbaycan torpaqlarında qriqoryanlığı yayan erməni missionerləri üçün əlverişli şərait yarandı. 1441-ci ildə erməni katalikosluğunun İrəvan (Çuxursəd) bölgəsinə köçürülməsinə qədər bu ərazidə ermənilərə məxsus heç nə yox idi. Hətta erməni katalikosluğunun yerləşdiyi Üçkilsə (Valarşabad) kəndi belə 1443-cü ildən başlayaraq ermənilər tərəfindən müxtəlif vasitələrlə hissə-hissə Azərbaycan türklərindən alınmışdır.

Ermənilərin Türkiyə və İrandan Azərbaycan və Gürcüstan ərazilərinə köçürülməsində və həmin torpaqların erməniləşdirilməsi siyasətində əsas rol qriqoryan kilsəsinə məxsusdur. XVII əsrdən rus imperiyası və Avropa dövlətləri ilə əlaqələri olan qriqoryan kilsəsi avropalıları inandırmağa çalışırdı ki, guya müsəlmanlar "Avropa ilə bir dinə tapınan erməni xalqını istismar edirlər". Hələ 1699-cu ildə qriqoryan kilsəsi "erməni haqlarından, ermənilərin dövlət yaratmaq" planlarını həyata keçirməyə çalışırdılar. O vaxt bu avantürist, heç bir məntiqə sığmayan fikirlərə Avropada, onun hakim dairələrində lazımi dəstək tapa bilmədiyindən Rusiyaya üz tutdular. 1701-ci ildə Səfəvi dövlətinin tərkibində olan Qarabağ vilayətinin erməni icmasının "iki nəfərlik" nümayədə heyəti I Pyotrla görüşərək Osmanlı Türkiyəsinə qarşı vahid xristian cəbhəsinin yaradılması planlarını açıqladılar. XVIII əsrin əvvəllərində I Pyotr Baltik dənizinə çıxmaq üçün başladığı şimal müharibəsində isveçlərə məğlubiyyətindən sonra Xəzəryanı ərazilərin ilhaqı xəyallarına düşdü. 1722-ci ildə ruslar Dərbənd, Quba, Bakı, Salyan, Lənkəran və digər Xəzəryanı Azərbaycan vilayətlərini ələ keçirmişdilər. 1724-cü ilin oktyabrında I Pyotr ələ keçən torpaqlara ermənilərin köçürülməsinə imkan verən sərəncam imzaladı. Sərəncamda bütün vasitələrdən istifadə etməklə "ermənilərin və digər xristianların müsəlman torpaqlarına" köçürülməsi, əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi bir vəzifə olaraq irəli sürülürdü.

Əsası I Pyotr tərəfindən qoyulan bu siyasəti sonralar Rusiyanın digər dövlət başçıları davam etdirdilər. 1768-ci ildə II Yekaterina ermənilərin himayə edilməsi barədə əmr imzaladı. Çar Rusiyası tərəfindən ermənilərin XIX əsrin ilk qərinəsində Şimali Azərbaycan torpaqlarına köçürülməsini iki mərhələyə ayırmaq olar: 1801-1828-ci il Türkmənçay müqaviləsinədək olan dövr və Türkmənçay müqaviləsindən sonrakı ilk illər.

1801-1828-ci illərdə çar Rusiyası tərəfindən ermənilərin Şimali Azərbaycana köçürülməsi, əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasəti işğal prosesi ilə paralel getmişdi. Bu dövrdə köçürülən ermənilərin coğrafi mənbələrini əsasən onların əvvəllər gəldikləri və hələlik çar Rusiyasının işğalından kənarda qalan Şimali Azərbaycan əraziləri təşkil edirdi.

Rusiya imperiyası 1804-cü ilin yanvarında ermənilərin də yaxından iştirakı ilə Gəncə xanlığını işğal etdi. 1805-ci il may ayının 14-də Qarabağ, 21-də isə Şəki xanlıqlarının çar Rusiyasının himayəsinə keçməsi haqqında Kürəkçay müqaviləsi imzalandı. Dekabr ayında isə Şirvan xanlığı ilə belə bir müqavilə imzalandı.

1806-cı ildə Dərbənd, Quba və Bakı xanlıqları, 1813-cü ildə Talış xanlığı ilhaq edildi. Çar Rusiyası, eyni zamanda Qacarlar dövləti ilə (1804-1813) aparılan müharibənin sonunda bağlanan Gülüstan müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla Şimali Azərbaycan torpaqlarını işğal etdi.

Qafqazdakı rus qoşunlarının baş komandanı general P.D.Sisianov ermənilərin Gəncəyə köçürülməsinin təşkilinə çalışırdı. Qarabağ, Şəki, Şirvan və digər Şimali Azərbaycan torpaqlarının erməniləşdirilməsi də fəal şəkildə davam etdirilirdi. Bu hal Şəki (1819), Şirvan (1820) və Qarabağ (1822) xanlıqlarının ləğvindən sonra daha da geniş miqyas aldı.

1804-1813-cü illərdə çar Rusiyası-Qacarlar və elə həmin dövrdə gedən çar Rusiyası-Osmanlı müharibəsi də (1806-1812) Azərbaycan torpaqlarının Rusiya tərəfindən işğalına son qoymadı. 1826-cı ildə çar Rusiyası Qacarlar dövləti ilə yeni müharibəyə (1826-1828) başladı.

Qeyd edilən müharibə Türkmənçay müqaviləsi ilə nəticələndi və həmin müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqları da (210 min kv.km ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya) çar Rusiyasının nəzarətinə keçdi. Osmanlı dövləti ilə çar Rusiyası arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə Ədirnə sülh müqaviləsi bağlandı. Ermənilərin köçürülməsinin yeni coğrafi mənbələri kimi Qacarlar və Osmanlı dövlətləri əsas yerə keçdi. Türkmənçay müqaviləsinə görə 40 000 erməninin, Ədirnə müqaviləsinə görə isə 90 000 erməninin İran və Anadoludan Tiflis, İrəvan və Naxçıvan bölgələrinə köçürülməsi razılaşdırılmışdı və bununla da ermənilərin Azərbaycan torpaqlarına kütləvi yerləşdirilməsi əzəli Azərbaycan torpaqlarının erməniləşdirilməsi və yerli əhalinin sıxışdırılması prosesinə başlanıldı.

Ermənilərin havadarları tərəfindən Azərbaycan torpaqlarının erməniləşdirilməsi siyasəti sonralar da kütləvi şəkildə aparılmaqda davam etmişdi. Statistik göstəricilərə görə yalnız 1828-1920-ci illər arasında Azərbaycana 560 000 erməni köçürülmüşdür.

### XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan münaqişəsi və tarixi ədalətin bərpası uğrunda mübarizə

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı öz məkrliliyi və vəhşiliyi ilə ayrıca seçilən cinayətləri nəticəsində soydaşlarımız hələ 1905-1920-ci illərdə təcavüzə və soyqırımlara məruz qalmışlar.

Belə ki, 1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabı nəticəsində, milliyyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Erməni millətçiləri həmin vaxt etiraf edirdilər ki, Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısındadır, əslində həmin ordu Erməni Milli Şurasına tabe idi. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və Daşnaksütyundan olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Bu dəhşətli soyqırım nəticəsində 1918-ci il ərzində 40 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Çar Rusiyasının süqutunun ardınca İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılmış, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə onun ərazisi 9 min kv km-dən 29,8 min kv km-ə çatdırılmışdır.

Sovet hakimiyyəti illərində, xüsusilə də 1948-1953-cü illərdə erməni millətçilərinin sovet dövlətinin rəhbərliyində olan vəzifəli şəxslərlə işbirliyi, yəni ermənilərin azərbaycanlıları sıxışdıraraq çıxarmaq barədə məkrli tələbləri, sovet dövlətinin rəhbərliyində olan şəxslərə isə bu planın müəyyən geosiyasi məsələlərə görə sərf etməsi və buna dəstək vermələri nəticəsində azərbaycanlılar Ermənistan SSR ərazisindəki əzəli, doğma torpaqlarından indiki Azərbaycan Respublikası ərazisinə köçmək məcburiyyətində qalmışdırlar. 1948-1953-cü illərin deportasiyası nəticəsində dövlət səviyyəsində "könüllü köçürülmə" adı ilə Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların əmlakı mənimsənilmişdir.

Nəhayət, son sıxışdırma və təcavüz dalğası XX əsrin sonlarında başladı. 1988-1994-cü illərdə erməni millətçilərinin məskunlaşdıqları ərazilərdə "Böyük Ermənistan" yaratmaq istəkləri Azərbaycan xalqının əzəli torpaqlarından qovulması və kütləvi insan itkilərinə məruz qalması ilə nəticələdi. Əsrin əvvəllərində olduğu kimi sonlarında da ermənilərin azərbaycanlılara qarşı ən qanlı cinayətlərindən birini, azərbaycanlıların kütləvi soyqırımını - Xocalı faciəsini törətdilər. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl, Azərbaycanın Ermənistanla həmsərhəd Qazax rayonunun Bağanis Ayrım kəndinin, Dağlıq Qarabağda azərbaycanlılar yaşayan İmarət Qərvənd, Tuğ, Səlakətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan, Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalmışdı.

Erməni separatçıları işğal etdikləri torpaqların onlarınkı olmasına əmin deyildilər, ona görə də burada heç bir quruculuq işləri aparılmamışdı. İşğal altında olan ərazilərin, oradakı infrastrukturun və yaşayış məntəqələrinin mövcud halı hələ 30 il əvvəlkindən də pis vəziyyəti bunu əyani göstərir.

Müharibə günlərində də ermənilərin hərbi qaydalara uyğun düzgün şəkildə döyüşməyi də bacarmadıqları, döyüşçü sayını artırmaq üçün xaricdən muzdlular, terrorçular (PKK-YPG, ASALA terrorçularını) gətirmələri də onların bu torpaqlarda müvəqqəti olmalarını bildiklərini sübut edirdi.

44 günlük Vətən müharibəsi günlərdə ermənilər öz qərəzli iddialarını həyata keçirmək üçün beynəlxalq ictimaiyyəti aldatmaq məqsədilə bütün yollara və bütün səviyyələrdə yalana və iftiraya əl atırdılar. Onların təsiri altında olan bəzi xarici media qurumlarında Azərbaycanın haqlı olduğu halda əleyhinə birtərəfli, qərəzli informasiyalar yayımlanırdı.

Bütün dünya bir sadə həqiqəti anlamaq istəmirdi ki, ermənilər qərəzli, məkrli planlarını həyata keçirərək Dağlıq Qarabağda 120 000 erməninin monoetnik, daha sərbəst və "ərköyün" yaşaması üçün 1 200 000 azərbaycanlı qaçqın və köçkün vəziyyətinə düşmüşdü, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfərdən çox azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur. Dünyanın böyük hissəsi bu qlobal miqyaslı faciəyə və ədalətsizliyə laqeyd qaldı. Lakin Azərbaycan dövləti və xalqı bu faciələrə və çətinliklərə rəğmən ayaq üstə durmaqda davam etdi və bütün sahələrdə inkişaf yolunu tutdu.

2020-ci il dünya miqyasında çətin bir il kimi yadda qaldı, xalqlar və dövlətlər üçün bir sınaq ili oldu. Belə bir mürəkkəb şəraitdə Azərbaycan üçün isə bu sınaq daha ağır oldu. Lakin Ali Baş Komandanımızın peşəkar rəhbərlik təcrübəsi və ordumuzun uğurlu əməliyyatları sayəsində dövlətimiz və xalqımız bu sınaqdan üzüağ, qalib çıxdı.

Tarixi rəqəmlərə diqqət edəndə, görürük ki, Azərbaycan torpaqlarının bölünməsi və ermənilərin torpaqlarımıza yerləşdirilməsinə səbəb olmuş İran-Rusiya müharibəsinin nəticələrini müəyyən edən Gülüstan müqaviləsinin danışıqları 813-cü il məhz sentyabrın 27-də başlanılmışdı. 2 əsr sonra, 2020-ci ildə, məhz sentyabrın 27-də 27 illik işğaldan sonra Qarabağımızın və ətraf rayonlarımızın azad olunması əməliyyatları başladı və xalqımız, Vətənimiz üçün pozulmuş tarixi ədalət bərpa olunmağa başladı. Artıq 27 sentyabr günü bizim üçün Böyük Zəfərin başlanğıcı kimi tarixdə qalacaq.

Zəfər tariximiz Azərbaycan dövlətinin, Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya göstərdi. Azərbaycan dövlətinin və Azərbaycan xalqının apardığı çoxillik mübarizədə Azərbaycanın ərazi bütövlüyü təmin olundu. Tarixi ədalət bərpa olunmağa başladı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

*Bakının azad edilməsindən 103 il keçir*

# Yaddaşlara hopan tarixi gün

*15 sentyabr 1918-ci il xalqımızın tarixində Bakının erməni-bolşevik qüvvələrindən azad olunduğu gün kimi qalıb. Bu tarixi gün hər birimiz üçün şərəflidir.*



1918-ci ilin avqust-sentyabr aylarında Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsi uğrunda gərgin döyüşlər başlanır. Göyçaydakı ilk döyüşdə daşnak-bolşevik qüvvələri birinci həmlədə məğlub olub geri çəkilir. Beləliklə, avqustun ilk günlərində Bakı şəhəri uğrunda qanlı döyüşlər alovlanır.

Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun zabit və əsgərləri döyüşlərdə qəhrəmancasına vuruşur. Uğurlu əməliyyatlardan sonra 1918-ci il sentyabrın 15-də Azərbaycan Milli Korpusu və çoxsaylı azərbaycanlı könüllü Bakıya daxil olaraq şəhəri erməni-bolşevik qüvvələrindən təmizləyirlər.

15 sentyabr 1918-ci il - Bakının erməni-bolşevik qüvvələrindən azad edilməsi öz əksini bir çox hərbçilərin, sərkərdələrin gündəliklərində, yazdıqları əsərlərdə tapıb. Tariximizin bu parlaq səhifəsi ingilis generalı Denstervilin gündəliyində də əks olunub. İngilis generalı Bakının azad olunması uğrundan qanlı döyüşlər zamanı ermənilərin yanında olub. General, ümumiyyətlə, Azərbaycan dövlətinin varlığını, azərbaycanlıların öz paytaxtları ilə bağlı tarixi haqlarını tamamilə inkar edib. Bakının erməni-bolşevik qüvvələrinin və havadarlarının əlində qalmasının tərəfdarı olub. Və bu istiqamətdə əlindən gələn köməyi əsirgəməyib. Tabeliyində olan qüvvələri ermənilərə, bolşeviklərə köməyə göndərib. İngilislərin Qafqaz İslam Ordusu ilə ilk qarşılaşması 26 avqust 1918-ci ildə, indki Binəqədi ərazisində olub. Həmin döyüşdə ingilislər 3 zabit, 70 əsgər itiriblər.

General Denstervil illər sonra Bakı ətrafında gedən döyüşləri də gündəliyinə yazıb. Salnaməçilər gündəlikləri yazıldığı dövrün güzgüsü adlandırırlar. Həmin günlərdə baş verən tarixi hadisələri daha əhatəli öyrənmək üçün generalın gündəliyi çox dəyərlidir.

**27 avqust**

Bakıya saat 3:30-da çatdım. Bob göyərtəyə qalxıb vəziyyət barədə məruzə etdi. Çox təəssüf ki, mən olmayan vaxt türklər uğurlu hücum əməliyyatı apararaq palçıq vulkanlarını ələ keçiriblər. Bizim itkilərimiz - 3 zabit və 70 əsgər. Nord Stafforddan olan hərbçilərimizdən 11 zabit öldürülüb, 35 əsgər yaralanıb. Hücum çox qətiyyətli xarakter daşıyıb. Həm də, fikrimcə, Bakını tutmaq üçün hücum ən zəif nöqtədən həyata keçirilib. Qüvvələr nisbəti dördün birə olub. Bundan əlavə artilleriya dəstəyimiz də təmin edilməyib. Mövqelərin möhkəmləndirilməsi üçün göndərilən erməni piyadaları isə əmri yerinə yetirməkdən boyun qaçırıblar...

**1 sentyabr**

Bakı heç nəyə baxmadan hələ də müdafiə olunur. Bu, sadəcə olaraq, uzun sürən möcüzədən başqa bir şey deyil. Şəhərdə qayda-qanun və nizam-intizam yoxdur. Beş nəfər diktator - Yermakov, Lemlin, Velunts və başqaları yarpaq kimi zəifdilər. Hamısı təxminən 25-30 yaşlı adamlardır. Mən saqqalı ağ olmayanların məsləhətlərinə qətiyyən inanmıram. Qoşunlarda heç bir intizam, mütəşəkkillik və tabeçilik nişanəsi görünmür. Düşmənin hücum etdiyi hər yerdə geri çəkilirlər. Əsgərlərim də hər cür yardımdan məhrum olduqlarına görə asan ova çevrilirlər. Mən ermənilərə az öncə hazırlanıb möhkəmləndirilən mövqelərdə yerləşməyi əmr etmişdim. Amma onlar hücumu bəhanə gətirib əmrin icrasından boyun qaçırdılar.

Şəhər gündüz də, gecə də fasiləsiz atəşə tutulur. Sakinlər tədricən buna vərdiş edirlər. Kiçik bombardmanlar elə də böyük zərər vurmur, sadəcə, dəhşətli səs-küy qoparır. Mənim limanda dayanan gəmim top atəşlərinin başlıca ünvanıdır. Mərmilərdən biri gəmimizin burun hissəsindəki xilasedici qayığa dəyib, onu sıradan çıxartdı. Həqiqətən də yaxşı nişan alıblar.

Baş komandan general Dokuçayev yaxşı oğlandır. Amma elə güclü adam deyil, üstəlik də, ən çətin sahə üçün cavabdehdir. Onun qərargah rəisi polkovnik Avetisov (erməni) zəif, xəstə, tamamən heç bir işə yaramayan adamdır. Generala dedim ki, onu qovsun, yerinə Stouku təyin etsin.

Türklər bu gün xüsusi çətinlik çəkmədən Digah kəndini tutublar. Digah olduqca möhkəmləndirilmiş mövqe sayılırdı və şəhərin müdafiəsinin təşkili nöqteyi-nəzərindən müstəsna əhəmiyyətə malik idi. Türklər qələbədən-qələbəyə addımlayırlar. Belə şəraitdə şəhər üzərinə hücuma keçməmələri mənə hələ də sirri-xuda kimi görünür. Əgər əks-hücum üçün qüvvəm olsaydı, onların dəstələrini darmadağın edərdim. Türklərin bu günə qədər itkilər verməməsinin yalnız bir izahı var: mənim Varvik, Vorçester, Şimali Strafford və Qlisterden olan 900 qəhrəmanımla üz-üzə gəlməyiblər.

Türklər bütün döyüşlərdən qalib çıxırlar. Deməli, özlərində açıq hücuma keçmək üçün cəsarət tapdıqları istənilən dəqiqədə Bakıya girə bilərlər. Şəhərin müdafiəçiləri get-gedə daha yarıtmaz və dağınıq hərəkət edirlər.

**3 sentyabr**

Dünən gecə şəhəri şiddətli atəşə tutmuşdular. Fransız polkovnik Şardini çox əsəbi adamdır. Əslinə baxanda, özüm də xüsusi qəhrəmanlığı ilə seçilən biri deyiləm. Lakin Allaha yalvarıram ki, doğuluşdan əta etmədiyi cəsarəti indi bir mükafat kimi versin.

**5 sentyabr**

Hələ də şəhəri əlimizdə saxlayırıq. Amma necə? Doğrusu, bilmirəm. Yeganə izah - Allahın möcüzəsidir. Yəqin itirmək vaxtı hələ yetişməyib. Lakin həmin dəqiqə hər an gələ bilər. Dünən gecə zabitlərimdən biri müdafiə xəttini inspeksiya etmişdi. Türklərin hücumunun ən çox gözlənilən yerində heç kimə rast gəlməmişdi. Əslində isə cəbhə xəttinin həmin yerində 1500 əsgər və 2 pulemyot olmalıdır. Bütöv erməni batalyonunun dayanmalı olduğu başqa nöqtədə isə cəmisi 75 nəfər varmış.

**9 sentyabr**

Heç şübhəsiz, düşmənin əlində şəhərin xəritəsi var və yerdəyişmələrim haqqında dəqiq məlumatlıdırlar. Məsələn, bilirlər ki, hər gün günortadan sonra saat 16.30-da "Kruyuqerin" göyərtəsində çay içirəm. Və çox güman ki, atəşi düz üstümə yönəltmək üçün burada da adamlar var. Nəhayət, mərmilərdən biri bir neçə yardlıq məsafədə lövbər salan iki gəmini zədələdi.

Binəqədidəki mövqelərimizə baxmaq üçün özümlə kapitanı da götürmüşdüm. Şəhərə qayıdanda "Avropa" otelindəki mənzil-qərargahımın güclü atəşə tutulduğunu gördüm. Böyür-başımızda divardan qopan kərpiclər və iri mala parçaları dəhşətli gurultu ilə səkiyə dəyib parçalanırdı. Mərmilərdən biri də mənim otağıma düşmüşdü.

**12 sentyabr**

Uzun müddətli razılaşmalardan sonra, nəhayət, bu gün Dağıstan müsəlmanlarının nümayəndələri ilə görüşə bildim. Onlar mənə dağıstanlıların mövqeyini çox aydın təsvir etdilər. Cəbbaxanamızı bir az sahmana saldıq. Döyüş sursatı ilə təminat əla vəziyyətdədir. İndiki ehtiyatlar növbəti 6 aya da bəs edər.

**15 sentyabr**

Türklərin həlledici hücumları səhər saat 4-də başlandı. Saat 11-ə doğru onlar artıq şəhər ətrafındakı bütün yüksəklikləri ələ keçirmişdilər. Strafforddan, Varlikdən və Vorçesterdən olan hərbi hissələr əla döyüşürdülər. Onların əllərindəki 800 tüfəng, öz artilleriyamız və yerli qüvvələrin artilleriyası (təxminən 40 yaxın top) sayəsində gücünü ikiqat artıran komandamız altında zirehli avtomobillər də daxil omaqla 7 minə yaxın türklə savaşın ağırlığını üstlərinə götürmüşdülər. Saat 16:00-a yaxın öyrəndim ki, Bakı qoşunları düşmənə müqavimət göstərmək əvəzinə, həmişəki kimi yenə də əsgərlərimi təhlükə altında qoyub mövqedən qaçırlar. Ermənilərdən isə həmişəki kimi fayda yox idi. Mən təlimata uyğun şəkildə köməkçim Breyi yazılı qeydlə diktatorların yanına göndərdim. Onlara döyüşün taleyinin artıq tam həll edildiyi ilə bağlı məlumat verdim. Eyni zamanda, qoşunlarımı mümkün qədər tez, qaranlıq düşməmiş gəmiyə yükləmək istədiyimi bildirdim. Diktatorlar onu çox diqqətsiz dinləmiş, "Nə istəyirsiniz edin" - deyə cavab vermişdilər.

103 il bundan əvvəl Bakının erməni-bolşevik qüvvələrindən azad edilməsi, bu döyüşlərdə Qafqaz İslam Ordusunun zabit və əsgərlərinin göstərdiyi qəhrəmanlıq və sücaət tarixin səhifələrində olduğu kimi qalıb. Tarixin həmin səhifələrini vərəqləyəndə iftixar hissləri keçiririk.

*(Yazı hazırlanarkən professor Vilayət Quliyevin "Bakı uğrunda savaş" məqaləsindən istifadə edilib).*

**Hazırladı:**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan Ordusunda müddətdən artıq həqiqi hərbi xidmət keçmək istəyənlərin sayı artıb

2020-ci sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhəboyu ərazilərimizdə genişmiqyaslı təxribatlar törətdi. Azərbaycan Ordusu ərazi bütövlüyümüzün təmin olunması məqsədilə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında əks-hücüm əməliyyatı keçirərək işğalda olan torpaqlarımızı azad etdi. Rəşadətli Azərbaycan Ordusunun Vətən müharibəsində qazandığı qələbə gənclərdə vətənpərvərlik hisslərinin artmasında müstəsna əhəmiyyətə malikdir. Məhz Azərbaycan gəncləri bu gün ölkəmizin suverenliyini və ərazi bütövlüyünü qorumaq məqsədilə hərbçi olmaq üçün ordu sıralarında xidmət etməyə böyük həvəs göstərirlər.

Müdafiə Nazirliyinin hərbi hissələrində zabit və gizir hazırlığı kursları ilə yanaşı, müddətdən artıq həqiqi hərbi xidmət keçmək arzusunda olan vətəndaşlar üçün də Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində ildə bir neçə dəfə kurslar təşkil olunur.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursuna qəbul olunmaq üçün müraciət edən vətəndaşlar hərbi həkim komissiyasının qərarı ilə yararlı hesab olunduqdan sonra nəzəri və praktiki imtahanlardan keçirlər. İmtahanları uğurla verən namizədlər təşkil olunan kurslara qəbul edilirlər.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində avqustun 9-dan başlanan növbəti müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursunda da kifayət qədər kursant var. Hazırda 12 ixtisas üzrə - motoatıcı, artilleriya, minaatan, top komandiri, avtomobil sürücüsü, avtomobil üzrə usta, mühəndis-istehkamçı və digər ixtisaslar üzrə nəzəri və praktiki tədris həyata keçirilir. Peşəkar müəllim və komandir heyəti tərəfindən kursantlara hərbi bilik və bacarıqlar öyrədilir.

Ehtiyatda olan polkovnik Adil Abduləzizov söhbət zamanı bildirdi ki, kurslarda iştirak edənlərin böyük əksəriyyəti Vətən müharibəsinin iştirakçılarıdır. Onlarla söhbətimdə bir daha əmin oluram ki, Vətəninə candan bağlı hərbçilər yetişdiririk.

Hazırda kurs keçən Elvin Sadıqlı kimi. O, Ali Baş Komandanın sentyabrın 28-də Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqındakı sərəncamından sonra könüllü olaraq Vətən müharibəsində iştirak edib. Çoxları kimi Elvin də arzusunda olduğu peşəyə - hərbçi peşəsinə yiyələnmək üçün imtahanlardan keçərək təşkil olunan kursda hərbi bilik və bacarıqlarını artırır.

Elvinlə söhbətimiz zamanı dedi ki, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində və onun tabeliyində olan tədris müəssisələrində peşəkar hərbi qulluqçuların hazırlanması üçün hərtərəfli şərait var. Bütün dərs vəsaitləri ilə təmin olunan geniş sinif otaqları, yataqxana və yeməkxana komplekslərində bütün imkanlar yaradılıb. Yeməkxanada kursantlar gündə üç dəfə milli mətbəximizin nümunələrindən ibarət olan kalorili yeməklərlə qidalanırlar.

Gizir Kənan Əliyev də söhbətə qoşularaq fikirlərini bizimlə bölüşdü. Təlim və tədris proqramına əsasən keçirilən dərslərdə kursantlara silah və texnikanın taktiki-texniki xüsusiyyətləri, onunla davranış qaydaları aşılanır, eyni zamanda praktiki döyüş atış çalışmaları yerinə yetirilir.

Günün nizam qaydasına uyğun olaraq kursantlar fiziki hazırlıqlarını artırmaq üçün mərkəzin həyətində quraşdırılan idman qurğularında məşqlər edir, geniş meydanda sıra hazırlığı keçirlər.

Qeyd edək ki, kursu uğurla başa vuran şəxslər 3 il müddətinə bağlaşma imzalayaraq ixtisaslarına uyğun müvafiq vəzifələrə təyin olunacaqlar.

**ARİZ CƏFƏROV**
**Azərbaycan Ordusunun**
**Sənədli və Tədris Filmləri Mərkəzi**

Gizir Hüseynov Elvin Ədalət oğluna məxsus SQ № 0021842 nömrəli gizirin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor vəzifəsini icra edən**
kapitan
Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 563
Nüsxə 4009